**Naxçıvan Muxtar Respublikası-100**



**3-4 oktyabr 2024**

# TƏHSİLDƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ: RƏQƏMSALLAŞDIRMA VƏ PERSPEKTİVLƏR II RESPUBLİKA ELMİ KONFRANSI

**Naxçıvan şəhəri**

timkon24.ndu.edu.az
timkon24@ndu.edu.az
+994 60 426 49 19
+994 70 247 43 23

# DƏVƏT MƏKTUBU

**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ "TƏHSİLDƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ: RƏQƏMSALLAŞDIRMA VƏ PERSPEKTİVLƏR" MÖVZUSUNDA II RESPUBLİKA ELMİ KONFRANS**

03-04 oktyabr 2024, NAXÇIVAN

***timkon24.ndu.edu.az***

**Dəyərli elm adamı!**

03-04 oktyabr 2024-cü il tarixlərində keçirəcəyimiz Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş "***Təhsildə inkişaf mərhələləri: rəqəmsallaşdırma və perspektivlər***" mövzusunda II Respublika Elmi Konfransında iştirakınızdan məmnun olarıq. Təhsil sahəsində müasir çağırışlara cavab verən tədqiqatların mühüm nəticələrinin müzakirəsi və yeni layihələrə zəmin yaratması məqsədi ilə, Siz dəyərli elm adamlarını Naxçıvana dəvət edirik. Elmi etikaya uyğun olaraq təqdim olunan orijinal tədqiqatların yer alacağı konfransımızda məqalə və tezislər dəqiqliklə incələnəcək və sonda konfrans kitabında nəşr olunacaqdır. Konfransımıza dəyərli tədqiqatlarınızla qatılmağınızı arzu edirik.

Hörmətlə,

**"Təhsildə inkişaf mərhələləri: rəqəmsallaşdırma və perspektivlər"** II Respublika Elmi Konfransının təşkilat komitəsi,

Əlaqə: ***timkon24.ndu.edu.az***

Mail. ***timkon24@ndu.edu.az***

Tel: (036) 5440861 (3220) (00994) 702474323 (00994) 703658165

| **KONFRANSIN YERİ: Naxçıvan Dövlət Universiteti Konqres Mərkəzi** | |
|---|---|
| **MÜHÜM MƏLUMATLAR:**<br>• Ödənişsiz iştirak<br>• Üz-üzə və online təqdimatlar<br>• Xülasə və tam məqalə nəşri<br>• İştirak sertifikatı<br><br>**ƏSAS MÖVZULAR**<br>• Təhsil tarixi<br>• Pedaqogika və psixologiya<br>• Metodika<br>• Təhsildə İKT və STEAM təhsili | **MÜHÜM TARİXLƏR:**<br>Qeydiyyat və mövzu adlarının göndərilməsi üçün son tarix: **13.09.2024**<br>Tezis və ya tam mətin göndərilməsi üçün son tarix: **20.09.2024**<br>Konfrans proqramının yayım tarixi: **25.09.2024**<br>Konfransın keçirilmə tarixi: **03-04.10.2024**<br>Konfrans kitabının yayım tarixi: **20.11.2024**<br>Konfransın dili: Azərbaycan, türk, rus, ingilis |

## KONFRANSIN MƏQSƏDİ

Konfransın əsas məqsədi milli təhsil sistemimizin keçmiş olduğu inkişaf yolunun öyrənilməsi, təhsilin inkişaf dinamikasının mərhələli şəkildə təhlil olunması, Azərbaycanda məktəb və pedaqoji fikrin inkişaf tarixinin öyrənilməsi, ölkəmizdə ali, ortaixtisas, məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyətinin tədqiq və təhlil olunması, təhsil sistemində kurikulum və boloniya təhsil sisteminin tətbiqinin vəziyyəti, maarifçi hərəkatın öyrənilməsi, təhsilin keyfiyyətinin artırılması, yeni informasiya mədəniyyətinin formalaşdırılması, vətəndaşların bütün pillələrdə təhsil alma imkanlarının bərabərləşdirilməsi, təhsil sisteminin dünyanın informasiya, mədəniyyət və təhsil məkanına inteqrasiyasının təmin edilməsi, vahid təhsil-informasiya sisteminin yaradılması, informasiya texnologiyalarının tədris prosesinə inteqrasiyasının təmin edilməsi, milli elektron dərsliklərin hazırlanması və onların tədris prosesində tətbiqi, ənənəvi dərs vəsaitləri ilə inteqrasiyası, habelə köməkçi metodiki vasitələrin hazırlanması, keyfiyyətin təmin edilməsi, tədris məqsədli informasiya texnologiyaları vasitələrinin standartlaşdırılması və sertifikasiyası, təhsilin idarə edilməsi üzrə İKT-yə əsaslanan effektiv və şəffaf monitorinq sisteminin, resurs mərkəzinin yaradılması, təhsil ocaqları üçün pedaqoji və İKT kadrlarının hazırlanması sisteminin yaradılması, onlara tədris prosesində ən yeni informasiya texnologiyalarından istifadə etmək bacarığının aşılanması, tədris prosesinin bütün iştirakçıları üçün İKT bacarıqlarına yiyələnmək imkanının yaradılması, təhsil müəssisələrinin müasir İKT avadanlığı və İnternet şəbəkəsi ilə təmin olunması, İKT sahəsi üzrə terminologiyanın işlənib hazırlanması və onun vahid standart kimi tətbiq olunması, təhsilin informasiyalaşdırılması prosesinin elmi təminatının və informasiya texnologiyalarına əsaslanan müasir təlim üsullarının hazırlanması, təhsil sahəsində dövlət idarəçiliyi və tənzimləmə sisteminin vahid informasiya infrastrukturunun yaradılması, informasiya təhlükəsizliyinin təmin olunması, təhsilin gələcək inkişaf perspektivlərinə təhlükə doğuran halların aradan qaldırılması üçün kompleks tədbirlərin həyata keçirilməsi yollarının müəyyənləşdirilməsi, təhsilin 5.0-a keçidin sürətləndirilməsi, inklüziv təhsilin inkişaf etdirilməsi, STEAM təhsilin səmərəliliyinin öyrənilməsi, təhsildə yeni təlim texnologiyalarının tətbiqinin səmərəliliyi, təhsildə süni intellektdən istifadənin üsul və yollarının müəyyənləşdirilməsidir.

# KONFRANSIN İSTİQAMƏTLƏRİ

**1. Təhsil tarixi**

- Heydər Əliyev və Azərbaycan təhsili
- Azərbaycanda məktəb və pedaqoji fikrin inkişafı

**2. Pedaqogika və psixologiya**

- Azərbaycanda ali və orta ixtisas təhsili
- Azərbaycanda məktəbəqədər və məktəbdənkənar təhsil
- Azərbaycanda kurikulumun və bolonya sisteminin tətbiqi
- Pedaqogika və psixologiya elmlərinin aktual problemləri

**1. Metodika**

- Fənlərin tədrisi metodikası
- Məktəblərdə psixoloji xidmət

**2. Təhsildə İKT və STEAM təhsili**

- STEAM təhsili
- İnformasiya texnologiyalarının təhsildə rolu
- Distant təhsil texnologiyası
- Təhsildə İKT və rəqəmsallaşdırma

## KONFRANS MATERİALLARININ TƏRTİBİ QAYDASI

**Kağızın ölçüsü:** A4
**Boş sahə:** hər tərəfdən 2 sm
**Şrift:** Times New Roman, 12 pt
**Sətirarası interval:** 1,15 sm.
**Abzas:** 1,25 sm
**Məqalənin adı:** ortadan, böyük hərflərlə, qalın şriftlə
**Müəllifin soyadı, adı, atasının adı:** ortadan, qalın şriftlə
**İş yeri, şəhər, ölkə:** ortadan, qalın şriftlə
**E-poçt ünvanı:** ortadan, qalın şriftlə
**Açar sözlər** (3-5 söz): Azərbaycan, ingilis və rus dillərində
**Xülasə** (250-300 söz): məqalənin yazıldığı dildən başqa iki dildə
**Həcmi:** 5-8 səhifə (məqalənin bütün tərtibatı daxil olmaqla)
**Düstur:** Microsoft Equation
**Ədəbiyyata istinadlar:** APA tərzinə uyğun olaraq – cümlənin sonunda dəyirmi mötərizə içində müəllifin (və ya müəlliflərin) soyadı, nəşr tarixi, səhifə.
Nümunə üçün: (Səmədova, 2024, s. 393)
**Ədəbiyyat siyahısı:** Mətndə qeyd olunan hər bir mənbə ədəbiyyat siyahısında əks olunur. Siyahı müəllifin adı ilə əlifba sırası ilə tərtib edilir.
**Nümunə üçün:**

Kofil, M. V. & Hubbard, R. G. (2019). Wiley revenue recognition: Rules and scenarios. Journal of Productivity, NY: Columbia University Press, 116-127.

Səmədova, R. A. (2024). Təhsilin ictimai münasibətlərə təsiri. Elmi əsərlər, Bakı: SƏS Nəşriyyatı, 393-407.

Yılmaz, E. (2021). Türkiye’de kapsayıcı eğitim. Ankara Üniversitesi Dergisi, 41-46